Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

# Azərbaycançılıq platformasının beynəlxalq təqdimatında diplomat kadrlarımızın rolu - Prezident yeni ideyalar verdi...

## 9-cu istiqamət: Azərbaycançılıq ideyasının təbliği

***Akif Nağı:** "Səfirlər, diplomatlar tərəfindən Azərbaycançılıq ideyasının təbliğ edilməsi çox vacibdir"*

**Azərbaycançılıq Azərbaycan xalqının milli dövlətçilik ideologiyasıdır. Harada yaşamasından, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, hər bir azərbaycanlının əsas vəzifəsi vahid ideologiyamız olan Azərbaycançılığa xidmət etmək, onun təbliği, tanıdılması ilə məşğul olmaqdır.**

Bu məsələdə Azərbaycan diplomatlarının üzərinə daha böyük məsuliyyət düşür və onların ümdə vəzifəsi, məqsədi Azərbaycan dövlətini yüksək səviyyədə təmsil və təqdim etmək, Azərbaycançılıq platformasının uğurlu təqdimatını həyata keçirməkdir. Bütün zamanlarda diplomatlar öz dövlətlərinin maraqlarına xidmət edən, dövlət və dövlətçilik maraqlarını qoruyan bir vacib sahə təmsilçiləri olublar. Bu gün də Azərbaycan diplomatları bu yolu tutmalı və Azərbaycanın dövlət maraqlarına xidmət etməlidirlər.

**"Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır"**

15 iyul tarixində Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində Prezident İlham Əliyev Azərbaycan diplomatlarının qarşısında duran əsas vəzifələri diqqətə çatdırdı: "...Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur..."

Qeyd edək ki, Prezident İlham Əliyev Ceyhun Bayramovu xarici işlər naziri təyin etdikdən sonra onu videoformatda qəbul edərkən də diplomatlarımızın qarşısında duran əsas vəzifələri bir daha bəyan edib. "...Bizim xarici nümayəndələrimiz, diplomatlarımız ölkəmizin maraqlarını tam təmin etməlidirlər. Mən deyə bilərəm ki, bizim xaricdə fəaliyyət göstərən diplomatlarımızın əksəriyyəti yüksək meyarlara cavab verir" - deyə ölkə başçısı bildirib.

Prezident həmçinin qeyd edib ki, Azərbaycan diplomatları hər şeydən əvvəl vətənpərvər olmalı, öz savadları, bilikləri ilə Azərbaycan dövlətini xarici ölkələrdə təmsil etməlidirlər.

**Azərbaycan diplomatları və Azərbaycançılıq ideologiyası...**

Bu gün dünyanın ən müxtəlif ölkələrində Azərbaycan səfirlikləri, diplomatik korpuslar fəaliyyət göstərir. Azərbaycançılıq ideologiyası diplomatlarımız üçün nə dərəcədə vacibdir?

Ölkə başçısının da vurğuladığı kimi, diplomatlarımız üçün vətənpərvərliyi, savadı, prinsipiallığı, ölkəmizi çox yüksək səviyyədə təmsil etməsi əsasdır. Əlbəttə, diplomatlarımızın fəaliyyətində Azərbaycançılıq ideologiyasının prinsipi, məqsədi, qayəsi əsas olmalıdır.

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan diplomatlarının fəaliyyətində Azərbaycançılığın prinsipləri əsas yer tutmalı və onlar bütün varlıqları ilə Azərbaycançılıq ideologiyasına xidmət etməlidirlər. A.Nağı hesab edir ki, dövləti sevən, dövlətçiliyinin müdafiəsinə qalxan, vətənpərvər olan hər bir diplomat Azərbaycançılıq ideologiyasına xidmət etmiş olur.

O vurğuladı ki, Azərbaycan diplomatları Azərbaycanın dövlət maraqlarını müdafiə etməkdən heç zaman çəkinməməli və bu istiqamətdə fəaliyyətlərini qurmalıdırlar. A.Nağı hesab edir ki, müasir dünyada Azərbaycanın dövlət maraqlarını zidd informasiyaların qarşısının alınmasında diplomatlar önəmli rol oynamalı və dövriyyəyə buraxılan qərəzli fikirləri "beşiyində boğmalı"dırlar. Bu gün Azərbaycan dövlətinin beynəlxaıq aləmdə nüfuzunun armasında, ədalətli mövqeyinin müdafiə edilməsində diplomatların önəmli rol oynamalı olduğunu deyən A.Nağının qənaətinə görə, Azərbaycana qarşı təşkil edilən bütün təxribatların qarşısı səfirlər, diplomatlar tərəfindən çox yüksək səviyyədə alınmalıdır.

"Siz çox maraqlı və vacib bir məsələni gündəmə gətiribsiniz. Ümumiyyətlə, diplomatlarımız bir çox istiqamətlərdə öz fəaliyyətlərini, işlərini yenidən qurmalıdırlar. Bu gün bizim diplomatik korpuslarımızla bağlı narazılıqlar çoxdur. Bu narazılığı ölkə başçısı da vurğulayıb və diplomatlarımıza Azərbaycanın dövlət maraqlarından çıxış etməyi tövsiyə edib. Bilirik ki, səfirliklərimiz çox zəif çalışır, səfirlərimizin əksəriyyəti, demək olar, öz işləri ilə məşğul olmurlar. Hesab edirəm ki, ölkə başçısı tərəfindən Ceyhun Bayramov xarici işlər naziri təyin etdikdən sonra nazirlikdə yeni ab-hava formalaşacaq, bu yeni atmosfer səfirliklərimizin fəaliyyətində də özünü göstərəcək. Buna böyük ümid bəsləyirəm. Səfirlər, diplomatlar tərəfindən Azərbaycançılıq ideyasının təbliğ edilməsi çox vacibdir. Bilirik ki, Azərbaycanda milli ideya şəklində Azərbaycançılıq mövcuddur. Illərdir bu ideyanın üzərində iş gedir, bu istiqamətdə sistem qurulub, bu ideya daha da təkmilləşdirilir. Hesab edirəm ki, Azərbaycançılıq ideyasının dünyaya, beynəlxalq aləmə yüksək səviyyədə çatdırılması üçün diplomatların xüsusi fəaliyyəti olmalıdır. Qoy dünya bilsin ki, Azərbaycan dövlətinin vahid milli ideyası nədir və Azərbaycançılıq ideyası nədən ibarətdir. Azərbaycanın milli ideyasının nədən ibarət olduğu dünyaya məlum olmalıdır. Azərbaycançılıq ideyasını bir neçə istiqamətdə çatdırmaq olar. Tutalım, Qarabağ Azadlıq Təşkilatı dünyada yaşayan soydaşlarımızla birlikdə "Qarabağın azadlığı dünya azərbaycanlılarının milli ideyasıdır" tezisini təbliğ edir. Biz bu işi illərdir həyata keçiririk. Səfirliklərə, diplomatik korpuslara gəlincə, diplomatların öz



fəaliyyətlərində Azərbaycançılıq ideyasını əks etdirmək və Azərbaycançılığın təbliğini, tanıdılmasını həyata keçirmək üçün imkanları daha böyükdür. İyulun 12-də cəbhənin Tovuz rayonu istiqamətində baş verən erməni təxribatından sonra dünyada Azərbaycanın mövqeyi həm ciddi şəkildə nümayiş etdirildi, həm də bir sıra məsələlərə aydınlıq gətirildi. Bunun özü də milli ideoloji xəttə, Azərbaycançılıq ideyasının özünə böyük bir töhfə oldu. O aksiyaların keçirilməsinin böyük əhəmiyyəti oldu. Hər aksiyada Azərbaycançılıq mövqeyindən çıxışlar edilirdi. Bu çıxışlar Azərbaycan dövlətinin milli maraqlarına xidmət edən çıxışlar idi. Qeyd etməliyəm ki, bu aksiyaların təşkilində Azərbaycan səfirliklərinin də müəyyən qədər rolu olub.

Fikrimcə, bu istiqamətdə Azərbaycan diplomatları öz fəaliyyətlərini genişləndirməlidirlər. Səfirliklər və diplomatik korpuslar birinci növbədə diaspor təşkilatlarımızın içərisində Azərbaycançılıq ideyasının əksəriyyət tərəfindən qəbul edilməsinə nail olmalıdır. Bu çox vacib bir məsələdir".

**"Azərbaycançılığın təbliğində diplomatlarımız xüsusi səylər göstərməli və..."**

A.Nağı hesab edir ki, diplomatlarımız hazırkı məqamda xarici ölkələrdəki diaspor qurumları, icmaları ilə geniş əlaqələr yaratmalı və onları Azərbaycançılıq ideyası, dövlət maraqlarımız naminə görülməli olan işlərə cəlb etməlidir. "Bu gün bütün azərbaycanlıların vahid milli dövlətçilik məfkurəsi olan Azərbaycançılıq ideyasının dünyada daha çox təbliğinə ehtiyac var. Azərbaycançılığın təbliğində isə diplomatlarımız xüsusi səylər göstərməli və bu təbliğat işinə Azərbaycan diasporunu da cəlb etməlidir. Səfirliklər və diaspor qurumları bu istiqamətdə həmrəy olmalıdırlar. Artıq şüarçılıqdan, sözçülükdən əl çəkib birgə fəaliyyət göstərməyin zamanıdır. Bu vacib məsələnin əməldə öz ifadəsini tapması çox zəruridir. Yenə də qeyd edirəm, Tovuz hadisələri zamanı müxtəlif ölkələrdə keçirilən aksiyaların özü Azərbaycançılıq ətrafında birləş edərək, bu ideyanı ortaya qoyaraq çıxışlar, söhbətlər etməlidirlər. Eyni zamanda da onlar fəaliyyət göstərdikləri ölkələrin ayrı-ayrı dövlət və qeyri-dövlət qurumları ilə təmaslarını daha da sıxlaşdırmalı və o görüşlərdə bu ideya ilə bağlı yeri gəldikcə məlumat verməli, o xətti təbliğ etməlidir. Fikrimcə, diplomatlarımız Azərbaycançılıq ideyasının təbliği istiqamətində görüləcək işlər üzərində xüsusi düşünməli və daha çox işlər görməlidir"-deyə A.Nağı qeyd etdi.

A.Nağının sözlərinə görə, Azərbaycan diplomatları unutmamalıdırlar ki, onların üzərinə xalqımızı, dövlətimizi, dövlətçiliyimizi, milli mədəniyyətimizi, tariximizi və sair təmsil etməklə bağlı çox böyük və məsuliyyətli vəzifə düşür, onlar bu vəzifələrin öhdəsindən gəlməyə çalışmalıdırlar. Azərbaycanı zəifləməyə, gücdən salmağa çalışan qüvvələrin qarşısında diplomatlarımızın bir sipər olmalı olduğunu deyən A.Nağı hesab edir ki, onlar öz fəaliyyətlərində dövlət maraqlarımızın əsas müdafiəçisinə, təbliğatçısına çevrilməlidir.

Azərbaycançılıq ideyasının milli dövlətçilik ideyası kimi özündə çox geniş və əhəmiyyətli istiqamətləri birləşdirdiyini vurğulayan A.Nağının sözlərinə görə, bizim diplomatlar ölkəmizin uğurlu inkişafını da təşviq etməlidir. Azərbaycançılığın özündə həm qədimliyi, həm də müasirliyi ifadə etdiyini deyən A.Nağının bildirdiyinə görə, diplomatlarımızın bilik səviyyəsi o qədər yüksək olmaldır ki, onlar Azərbaycançılığın mahiyyətini tam olaraq ifadə etsinlər.

A.Nağı onu da vurğuladı ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri, dövlətimizin ədalətli mövqeyinin beynəlxalq aləmdə ardıcıl şəkildə təbliğ edilməsi istiqamətində diplomatlarımız öz fəaliyyətlərini daha da gücləndirərsə, erməni yalanlarının ifşasında xüsusi səylər göstərərlərsə, bu, Azərbaycançılığa, Azərbaycan dövlətinə göstərdikləri ən böyük xidmətlərdən biri olardı.

A.Nağının fikirlərindən belə qənaətə gəldik ki, Prezidentin də dediyi kimi, bu gün Azərbaycan diplomatları öz fəaliyyətlərini Azərbaycançılıq ideyası, milli dövlətçilik maraqları üzərində qurmalıdır.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**